# Azərbaycanın xarici işlər və müdafiə nazirlərinin müavinləri Rusiyanın ölkəmizdəki səfirliyində olub, başsağlığı veriblər

Noyabrın 10-da Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinə gedərək noyabrın 9-da Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Rusiya Federasiyasına məxsus “Mi-24” hərbi helikopterinin vurulması nəticəsində yaşanan faciəvi hadisə ilə bağlı başsağlığı veriblər.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.

Azərbaycan.- 2020.-11 noyabr.- S.6.